**“STATİSTİKA VƏ CƏMİYYƏT”**
**elmi-praktiki konfransı haqqında məlumat**

**Konfransın təşkilatçıları:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi.

**Konfransın məqsədi:** Sosial-iqtisadi qərarların qəbulunda statistikanın rolu, statistik məlumatların hazırlanmasında innovativ yanaşmalar, məlumatların keyfiyyətinin artırılması istiqamətində elmi-praktik əhəmiyyət kəsb edən məsələlərin aşkara çıxarılmasıdır.

Konfrans Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 21 dekabr tarixli 2621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı”na uyğun olaraq keçirilir.

İstifadəçilər üçün statistik məlumatların hazırlanması, beynəlxalq və milli səviyyədə tətbiq olunan metod və üsullar, yeniliklər haqqında məlumatların verilməsi, istifadəçi tələbatının qiymətləndirilməsi elmi-praktik konfransın əsas vəzifələrindən biridir.

**Konfransda əhatə olunacaq mövzular:**

1. Sosial-iqtisadi qərarların qəbulunda statistikanın əhəmiyyəti:
   - istifadəçi tələbatının ödənilməsində statistikanın rolu;
   - sosial-iqtisadi məlumatların statistik təhlili;
   - istifadəçi maraqları və onların təmin olunması məsələləri.
2. Statistikada elmi-metodoloji yanaşmaların praktikaya tətbiqi:
   - statistikanın ayrı-ayrı sahələrində istifadə olunan metodlar;
   - statistikada beynəlxalq standartların tətbiqi;
   - statistikada təkmilləşdirmələrin aparılması.
3. Statistikada keyfiyyətin təmin olunmasının təşkili məsələləri:
   - statistikada keyfiyyət və bu sahədə görülən işlər;
   - statistika sisteminin inkişafı istiqamətləri;
   - sahibkarlara düşən statistika yükünün azaldılması;
   - inzibati məlumatlardan istifadə;
   - statistikada metaməlumatlar sistemi.
   - Keyfiyyətin idarə edilməsi (KİS) çərçivəsində statistik məhsulların, proses və fəaliyyətlərin idarə olunması.

**Konfransın keçiriləcəyi yer:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, inzibati binanın 1-ci mərtəbəsi, iclas zalı. Ünvan: AZ1136, Bakı şəhəri.

**Konfransın keçirilmə tarixi:** 28 noyabr 2014-cü il, saat 10.00-16.00
**Məqalə və tezislərin qəbulunun son tarixi:**11.11.2014
**Məqalə və tezislərə baxılması və nəşrə qəbul edilməsinin son tarixi:**20.11.2014

**Məqalə və tezislərə olan tələblər:**Təqdim olunacaq məqalələr azərbaycan, rus və ya ingilis dilində olmalıdır.

Məqalə A4 formatında, 1,5 intervalla, Times New Roman 14 şriftilə yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxardan 25 mm və a şağıdan 20 mm) boşluq buraxılmalıdır.

Göndərilən məqalələr bu bölmələrdən ibarət olmalıdır: məqalənin adı, müəllifin adı və soyadı, ünvanı, xülasə, açar sözlər, əsas mətn, ədəbiyyat siyahısı.

Başlıq ortada, böyük və qara hərflə yazılmalıdır.

Müəllifin adı başlığın altında (ortada olmaqla) yazılmalı, ünvanı (iş yeri və ya təhsil aldığı təşkilat) göstərilməli, elektron poçtu verilməlidir.

Xülasə 150-250 söz arasında olmalı, tədqiqatın məqsədini, əhəmiyyətini və istifadə edilən və ya formalaşdırılan metodları, hansı suallara cavab verildiyini və tətbiq dairəsini göstərməlidir.Times New Roman 9 şriftilə yazılmalı, həm azərbaycan, həm də ingilis və rus dillərində ən azı üç açar söz göstərilməlidir.

Şəkil, rəsm, qrafik və cədvəllər çapda düzğün, aydın çıxacaq vəziyyətdə olmalıdır. Şəkil, rəsm və qrafiklərin yazıları onların altında yazılmalıdır. Cədvəllərdə isə başlıq  cədvəlin üstündə qara hərflə yazılmalıdır.

Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

Məqalənin həcmi 10 səhifədən artıq olmamalıdır.

Tezislər A4 formatında, 1,5 intervalla, Times New Roman 14 şriftilə yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxardan 25 mm və aşağıdan 20 mm) boşluq buraxılmalıdır. Göndərilən tezislər bu bölmələrdən ibarət olmalıdır: tezisin adı, müəllifin adı və soyadı, ünvanı, qısa mətn.Tezislərin həcmi 1 səhifədən artıq olmamalıdır. Başlıq ortada, böyük və qara hərflə yazılmalıdır.Müəllifin adı başlığın altında (ortada olmaqla) yazılmalı, ünvanı (iş yeri və ya təhsil aldığı təşkilat) göstərilməli, elektron poçtu verilməlidir.

Məqalə və tezislərin elektron variantları, habelə əlaqə saxlanılması üçün məlumatlar (telefon və s.) konfrans@azstat.org ünvanına göndərilməlidir.

Konfrans zamanı çıxışçılar lazımi texniki vasitələrlə (proyektor, çap işləri və s. ilə) təmin olunacaqlar. Məqalə və tezislər toplu şəklində nəşr olunacaq və müəlliflərə veriləcəkdir.